# Ulu öndər Heydər Əliyevə vəfa borcumuz var



**MİLLİ MƏCLİSİN MÜDAFİƏ, TƏHLÜKƏSİZLİK VƏ KORRUPSİYA İLƏ MÜBARİZƏ KOMİTƏSİNİN SƏDRİ ZİYAFƏT ƏSGƏROV**

**- Ziyafət müəllim, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin anım günü ərəfəsindəyik. Azərbaycanın müasir tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir" tezisini müstəqilliyimizin bərpasının ilk illərində yaşananlar fonunda necə şərh edərdiniz?**

- Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda vəziyyət bütün sahələrdə çox ağır idi. O zaman müstəqilliyimiz yenidən bərpa edilsə də onun möhkəmləndirilməsi, irəli aparılması istiqamətində heç bir iş görülməmişdi. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev daim bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir. Azərbaycanda 1993-cü ilin iyununadək olan dövrü yada salaq. Xaos, anarxiya, ölkədə vətəndaş müharibəsi, Azərbaycanın bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinməsi təhlükəsi həmin illərin səciyyəvi xüsusiyyətləri idi. Ölkənin iqtisadi vəziyyəti çox ağır idi. Siyasi münasibətlərdə də eyni vəziyyət yaşanırdı. Bax, belə bir vəziyyətdə ölkənin gələcəyi sual doğururdu. Təsəvvür edin ki, insanlar bir gəmiyə toplaşıb, amma bu gəmi hara gedir məlum deyil. Azərbaycan bu vəziyyətdə idi. 1992-ci ildə xalqın böyük əksəriyyətinin istəyini özündə ifadə edən 91 nəfər ziyalı ulu öndər Heydər Əliyevə müraciət etdi. Onun hakimiyyətə gəlməsi üçün bir partiyanın yaradılmasına ehtiyac var idi. Ondan əvvəl də ulu öndər Heydər Əliyevə müraciət olunmuşdur. Dəfələrlə edilən müraciətlərə baxmayaraq Ümummilli Lider siyasətə qayıtmaq istəmədiyini bildirirdi. Amma "91-lər" müraciət edəndə ulu öndər Heydər Əliyev artıq gördü ki, Azərbaycan çox ağır vəziyyətdədir. Belə bir çətin durumda kənarda qala bilməz. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdu. Ölkədə vəziyyət çox ağır idi. Xalq ulu öndər Heydər Əliyevi tələb edirdi. Bilirdi ki, Ümummilli Lider hakimiyyətə qayıtmasa, bu ölkənin sonu necə olacaq, məlum deyil. Yəni qeyri-müəyyən vəziyyət yaranmışdır. Bax, belə bir çətin vəziyyətdə Heydər Əliyev partiyanın yaradılmasına razılıq verdi. Ondan sonra 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Ulu öndər Heydər Əliyev 1993-cü ilin iyunun 9-da Bakıya qayıtdı. İyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri, oktyabrın 3-də Prezident seçildi.

**- Ulu öndər Heydər Əliyevin gəlişi insanlarda böyük ümidlər yaratdı...**

- Çünki onun biliyi, strategiyası, dünyagörüşü, təcrübəsi insanlarda bu inamı yaradırdı ki ölkənin gələcəyi yaxşı tərəfə istiqamətlənəcək. Elə də oldu. Ulu öndər Heydər Əliyev Prezident seçildikdən sonra düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə sabitlik yaradıldı, iqtisadi tərəqqi üçün yol açıldı. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Ondan sonra ölkənin ilk Milli Konstitusiyası, ayrı-ayrı qanunlar qəbul edildi. Ulu öndər Heydər Əliyev ordu quruculuğuna xüsusi diqqət yetirirdi. Bir sözlə, Ümummilli Lider müasir Azərbaycan yaratdı. Qeyd etdiyimiz kimi, sabitlik olan yerdə iqtisadi inkişaf da açılmazdır. İqtisadi inkişaf gedirsə, ölkənin xarici siyasəti düzgün istiqamətdə formalaşacaq. Ümummilli Liderin xarici ölkələrə səfərləri, ikitərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi ona gətirib çıxardı ki, artıq Azərbaycanın sabahına böyük inam yarandı. Xalq dövlət, dövlətçilik, hüquqi dövlət anlayışlarının mahiyyətini dərk etdi.

Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən saatlarla, günlərlə danışmaq olar. Heydər Əliyev elə bir fenomen şəxsiyyət idi ki, onun gördüyü işləri, bugünümüzün və gələcəyimizin əsası olan ideyalarını bir yazıda əhatə etmək mümkün deyil. Azərbaycanın bugünkü inkişafına, ölkəmizdə mövcud sabitliyə, əmin-amanlığa görə Ulu Öndərə borcluyuq. Heydər Əliyev Azərbaycanı konkret istiqamətə yönəltdi və bildirdi ki, demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bunu Milli Konstitusiyamız da təsdiqlədi. Ali Qanunumuzu referendum yolu ilə qəbul etdik. Xalq ulu öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanı qəbul etdi və bu gün də ali Qanunumuz Azərbaycanı sürətli inkişafa aparır. Prezident İlham Əliyev Heydər Əliyev kursunu uğurla davam etdirir və qısa zamanda Azərbaycanı innovasiyalar ölkəsinə çevirdi. Azərbaycan iqtisadi, siyasi, humanitar mərkəz kimi tanınır. Ölkəmiz beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. Azərbaycan özünün təkmil iqtisadi modelini yaratdı və dünyaya təqdim etdi. Güclü ordumuz formalaşdı. Çoxşaxəli, çevik və açıq xarici siyasət kursu həyata keçirilir. Bütün bunların əsasında ulu öndər Heydər Əliyevin Azərbaycanın gələcəyinə xidmət edən strategiyası dayanırdı. Bu gün də həmin strateji kursu Prezident İlham Əliyev uğurla davam etdirir. Məhz bu siyasətin nəticəsi idi ki, 44 gündə torpaqlarımızı işğaldan azad etdik. Təsəvvür edin ki, 30 ilə yaxın davam edən bir problemə, işğala 44 gün ərzində son qoyuldu. Bu nəyin sayəsində oldu? İqtisadiyyatımızı gücləndirdik, siyasi çəkimizi artırdıq, ordu quruculuğu prosesi sürətləndi, xalqla iqtidarın birliyi möhkəmləndi, sarsılmaz oldu. Bunların hamısı bir-biri ilə sıx bağlıdır. Xalq-iqtidar-ordu birliyi müharibəni qalibiyyətlə başa çatdırmağa əsas verdi.

Bir məsələni də qeyd etmək istəyirəm. Ulu Öndərimiz Azərbaycanın ilk Milli Konstitusiyası qəbul ediləndə bu fikri xüsusi qeyd edirdi ki, ali Qanunumuz elə olmalıdır ki, hər kəsin mənafeyinə cavab versin. Heydər Əliyev sözün hər mənasında fenomen şəxsiyyət idi. O, Konstitusiyanın müddəalarını elə şərh edirdi ki, təəccüb doğururdu. Onun dərin biliyi, təfəkkürü imkan verirdi ki, hər bir sahəyə nüfuz, hər bir sahə barədə söhbət etsin. Ümummilli Lider tarixçi ilə tarixçi kimi, hüquqşünasla hüquqşünas kimi, akademiklə akademik kimi, rəssamla rəssam kimi, incəsənət xadimi ilə incəsənət xadimi kimi söhbət edirdi. Onun hərtərəfli biliyi imkan verirdi ki, hər kəslə öz dilində danışsın. Dünyanın siyasi xadimlərinin Heydər Əliyev haqqında söylədiyi fikirləri yada salmaq istərdim. ABŞ-ın keçmiş dövlət katibi qeyd etmişdir ki, Heydər Əliyevin ölümü ilə dünya bir qədər də kiçildi. Bu, Heydər Əliyevin dünyamiqyaslı siyasətçi olduğunun təsdiqidir. Bu gün fəxrlə qeyd edirik ki, Heydər Əliyevin qurduğu dövlətdə yaşayırıq. Biz Heydər Əliyevin qurduğu dövlətin vətəndaşlarıyıq. Biz qalib dövlətin vətəndaşlarıyıq. Bu qalibiyyətin də əsasında Heydər Əliyev siyasəti dayanır. Bu qalibiyyətin də memarı Prezident İlham Əliyevdir. Bizim Ulu Öndər Heydər Əliyevə vəfa borcumuz var. Vəfa borcumuz nədər ibarətdir? O, daim bildirirdi ki, müstəqillik bizim üçün şansdır, onun qədrini bilməliyik. Hər bir Azərbaycan vətəndaşı peşəsindən, siyasi mövqeyindən asılı olmayaraq bu müstəqilliyin qədrini bilməli, onu qorumalıdır. Çünki bizim xalqımız əsrlər boyu bu müstəqilliyə can atıb. Müstəqilliyi əldə etmişik, onun qədrini bilməliyik.

Ulu öndər Heydər Əliyev hər bir sahədə nümunə idi. Mənim üçün böyük xoşbəxtlikdir ki, ulu öndər Heydər Əliyevi şəxsən tanımışam. Çalışırdı ki, insanlar dövlətçilik, dövlət quruculuğu, dövlətçilik prinsipləri nədir, bunu dərk etsin və dövlətini sevsinlər. Nə qədər ki müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaq.

**- Azərbaycançılıq ideologiyasından bəhs etdiniz. Ulu Öndər milli ideologiyanın yaradılmasını dövlət siyasətinin prioritetinə çevirdi. Harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlılarını azərbaycançılıq ideologiyası ətrafında birliyə, həmrəyliyə çağırdı. Bu çağırış hansı mühüm addımların reallığa çevrilməsi ilə yadda qaldı?**

- Ulu Öndər nə üçün azərbaycançılıq ideologiyasını ortaya qoydu? Azərbaycançılıq ideologiyası o deməkdir ki, Azərbaycanda yaşayan, milliyyətindən, dinindən, siyasi mövqeyindən asılı olmayaraq bütün insanlar azərbaycanlıdır. Bu, məsələnin birinci tərəfidir. İkinci tərəfi budur ki, azərbaycançılıq özü dövlətin fundamental prinsiplərinə xidmət edən və bu prinsipləri möhkəmləndirən ideologiyadır. Bu ideologiya Azərbaycan dövlətinin möhkəmlənməsinə xidmət edir. Ulu Öndər xarici ölkələrə gedərkən daim Azərbaycan diasporunun nümayəndələri ilə görüşürdü. Daim bildirirdi ki, harada bir azərbaycanlı var, orada Azərbaycan var. Harada bir Azərbaycan ailəsi var, orada Azərbaycan dövləti var. Bizim Konstitusiyamıza görə ailə cəmiyyətin əsasıdır. 44 günlük Vətən müharibəsi Azərbaycan diasporunun da fəallığını nümayiş etdirdi. İdeologiya xalqı birləşdirirsə, demək, mütərəqqi ideologiyadır. Ulu öndər Heydər Əliyev bunu nəzərdə tuturdu. Görün, nə qədər uzaqgörən, fenomen dövlət rəhbəri olub. Ulu Öndər azərbaycançılıq ideologiyasını prinsip kimi irəli sürməklə çox məsələləri demək olar ki, həll etdi. Əsas məsələlərdən biri xaricdə diasporumuzu gücləndirmək idi. Əvvəllər xaricdə diasporumuz indiki qədər güclü deyildi. Getdikcə vahid Azərbaycan dövləti ətrafında birləşdilər. Bu, azərbaycançılıq ideologiyasının bizə verdiyi töhfədir. Bu ideologiyanın da müəllifi yenə də Heydər Əliyevdir. Ulu öndər bu çağırışı da edirdi ki, dünya azərbaycanlıları yaşadıqları ölkələrin ictimai-siyasi proseslərinə qatılmalıdırlar. Bu halda Azərbaycana daha çox kömək edə bilərlər. Düşünürəm ki, Azərbaycan bu sahədə də çox güclü mövqedədir.

**- Bütün ömrünü dövlətinin, xalqının gələcəyinə həsr edən ümummilli lider Heydər Əliyev 2003-cü ildə xalqa müraciət edərkən Azərbaycanın gələcəyini necə görmək istədiyini açıqladı?**

- Ümummilli Lider Azərbaycanın gələcəyini cənab İlham Əliyevdə görürdü. Onun reallığa əsaslanan bu fikrini xatırlayaq: "Mən ona özüm qədər inanıram." Bu, sadəcə söz deyildir. O artıq ulu öndər Heydər Əliyevin "yüz ölçüb, bir biçdiyi" bir fikir idi. Ondan sonra bu kursu yalnız cənab İlham Əliyev davam etdirə bilərdi. Prezident İlham Əliyev bu kursa sadiqliyini əməli fəaliyyəti ilə təsdiqlədi.

Əminəm ki, Azərbaycanın qarşıdakı illərdə görəcəyi işlər çoxdur. Azərbaycanı qarşıda sözün yaxşı mənasında böyük işlər gözləyir. İşğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri aparılır. Hesab edirəm ki, ulu öndər Heydər Əliyevin bu fikrini qeyd etmək yerinə düşər. O, deyirdi ki, iqtisadyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Hər kəs üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirərsə, Azərbaycan daha da güclənəcək. Azərbaycan gücləndikcə isə Ulu Öndərin daha bir fikrini qeyd etməliyik: Azərbaycan dünyaya Günəş kimi doğacaq. Azərbaycan artıq dünyaya Günəş kimi doğur. Ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolu göz qabağındadır. Azərbaycanla hesablaşırlar. Azərbaycanı güclü dövlət kimi çox böyük hörmətlə qəbul edirlər. Azərbaycan Qoşulmama Hərəkatının sədridir. Bunlardan bəhs etdikdə Ulu Öndərin nə qədər dünya miqyaslı siyasətçi olduğunu dərk edirsən. Çünki möhkəm təməl bu uğurları şərtləndirir.

**- Ölkə Prezidenti İlham Əliyevin "güclü dövlət" konsepsiyasının əsasını təşkil edən iqtisadi, siyasi və hərbi gücün vəhdəti fonunda tarixi Zəfərimizi necə şərh edərdiniz?**

- Torpaqlarımız işğal altında olanda bəzi insanlar fikirləşirdilər ki, bu işğal nə zamanadək davam edəcək. Bəziləri ümidsizliyə qapılırdı. Ulu Öndər, Onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev daim bildirirdilər ki, biz o torpaqlara qayıdacağıq. Xalqımız bilirdi ki, o sözlərin arxasında çox böyük işlər dayanır. İqtisadi, siyasi və hərbi gücün vəhdəti fonunda tarixi Zəfərimizə nail olduq. Əvvəldə də qeyd etdiyim kimi, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə imzalananda Azərbaycanın iqtisadiyyatı çox aşağı səviyyədə idi. 1993-cü ilə qədər hakimiyyətdə olanlar ölkə iqtisadiyyatını çox ağır vəziyyətə salmışdılar. Ulu Öndər iqtisadiyyatımızın əsaslarını yaratdıqdan sonra Azərbaycanın həyatında yeni dövr başladı. İslahatlar davam etdi. Bu, məsələnin bir tərəfidir. Siyasi tərəfinə gəldikdə isə Heydər Əliyevin xarici ölkələrə ilk səfəri Fransa oldu. Fransa erməni diasporunun ən güclü olduğu ölkədir. Heydər Əliyevin bu ölkəyə səfəri təsadüfi deyildi. Fransa ilə münasibətlərin istiləşməsində bu səfərin böyük əhəmiyyəti oldu. Ümummilli Liderin, Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri çərçivəsində, həmçinin dünyanın ən yüksək tribunalarından səsləndirdikləri bəyanatlar ölkəmizin siyasi çəkisinin artmasında, mövqeyinin möhkəmlənməsində mühüm rol oynadı. Prezident İlham Əliyev Azərbaycanın nüfuzunu, sözünün əhəmiyyətini artırdı. Dövlət başçısı İlham Əliyev dünyaya sübut etdi ki, Dağlıq Qarabağ məsələsində Azərbaycan haqlı tərəfdir. Münaqişənin mahiyyəti bütün beynəlxalq platformalarda dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırıldı. Eyni zamanda, paralel olaraq ordu quruculuğu prosesinə başlandı. İqtisadi imkanlarımız artdıqca ordumuz da güclənməyə başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, nəyi nə zaman etmək lazım olduğunu yaxşı bilir. Dövlət başçısı zamanı çox düzgün seçdi. Erməni təxribatına qarşı əks-hücum əməliyyatlarına başlayaraq tarixi Zəfərimizə nail olduq. Əlbəttə, iqtisadi, siyasi və hərbi gücün vəhdətliyindən danışarkən xalqın Liderinin ətrafında sıx birləşdiyini də xüsusi qeyd etməliyik. Xalqımız da Müzəffər Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşdi.

**- Ziyafət müəllim, Qələbəmizin diktə etdiyi reallıqlar Ulu Öndərin şah əsəri olan müasir müstəqil Azərbaycanın qarşısında hansı perspektivləri açır?**

- Çox böyük perspektivlər açılır. Azərbaycanın çox gözəl gələcəyi vardır. Çünki bu gözəl gələcəyin əsasını, fundamentini ulu öndər Heydər Əliyev qoyub. Bu gün həmin əsaslar üzərində qurulan Azərbaycanı uğurlu gələcək gözləyir. Bu uğurlu gələcəyin təmin olunması üçün xalqımız Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşməlidir. Liderlə xalq arasında birlik nə qədər möhkəm olarsa, inkişafımız da bir o qədər sürətli olacaq. Bu yolda ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya, xalqımıza uğurlar arzulayıram. Bu birlik sayəsində Qarabağımız, Şərqi Zəngəzurumuz cənnət məkana çevriləcək, soydaşlarımız Böyük Qayıdışın sevincini yaşayacaq.